# HƏRBİ AND

Azərbaycan Respublikasına xidmətimlə fəxr edirəm!

№ 02 (2009) 16 yanvar 2026-ci il, Həftəlik ictimai-siyasi qəzet Qiyməti: 50 qəpik

# Döyüşçü yazıçı

*(əvvəli ötən sayımızda)*

"Satqın" hekayəsində nəyinsə xatirəsi üçün düşmənə işləyənin ifşa edilməsi, hekayəsinin süjet xəttini təşkil edir. Komandir satqınlıq edəni iş başında yaxalamaq məqsədi ilə plan qurur. Şəxsi heyətlə qurduğu planı müzakirə edir.

Gecə, satqın rahatlıqla tələyə düşür. Geriyə yol olmadığını görən satqın, bağışlanması üçün nə qədər yalvarıb-yaxarsa da xeyri olmur. Komandir göstəriş verir ki, yağlı boya ilə alçağın alnına və sifətinə "satqın" yazın.



"Qoyun övladları da bilsin ki, kimdi onların atası".

Vətəni satan heç vaxt bağışlanmır, fikri ilə komandir qətiyyətlə deyir:

- Yox, səni bağışlamaq olarmı heç.

Satqının bir cəzası var, o da ölüm. Cəzanın ağırlığına baxmayaraq, nə qədər müharibə varsa, satqın da olacaq.

Bu, qanunauyğunluqdur.

"Yaralı sevgi" hekayəsində yazıçı nadanlıqla insanlığı, pulun insanlığı arxa plana keçirməsini Qismətlə Mehri arasında yaranmış məhəbbətin nümunəsində təqdim edir. Avtomobil qəzası nəticəsində ağır yaralanan Qismətin vəziyyəti ürək açan deyil.

Xəstənin ətrafında olan həkim və tibb bacısı həyəcan içərisində Qismətin narkozdan ayılmasını gözləyirlər. Xəstə özünə gələn kimi "Mehri" deyib, yenidən gözünü yumur.

Bir-birinin üzünə baxan həkim və tibb bacıları "Maraqlıdır, xəstə ataanasının adını yox, Mehrinin adını çəkir. Kimdir bu Mehri?" sualı ətrafında düşündükləri məqamda Zəhra elə bil yuxudan ayılır və təcrübə keçməyə gəlmiş Mehrini xatırlayır.

Həkim Mehrini çağırtdırıb, xəstənin nəbzini tutmasını tapşırır. Özünü itirən Mehriyə həkim:

- Mehri, tez ol, xəstənin nəbzini tut, - deyir.

- Kim, Mehri dediniz?

Xəstə zorla eşidiləcək səslə bu sözləri deyə bilir.

- Biçarə Mehri, sənin qəlbini yaraladım, sənin sevgini yaraladım, sənin eşqini yaraladım. Məni bağışla əzizim, məni bağışla!"

Xəstənin durumuna dözə bilməyən Mehri, göz yaşları içərisində palatanı tərk edir.

Xəstənin yanına gələn ana və ata ilə söhbət zamanı, Zəhra həkimlə söhbət zamanı Qismətin anasının iç üzü açılır. Mehri adını eşidən ana daha da havalanır. Mehri kimdir, bizim ailənin tayı deyil və daş atıb başını tutur.

Ananı oğlunun taleyi düşündürmür, o, gələcək gəlninin arxalı, pullu, sayılıb-seçilən ailənin qızı olması arzusundadır.

Həyata pulun gözü ilə baxan ana, təmiz, ülvi məhəbbəti dəyərləndirməkdən çox uzaqdır. Çünki bu qadına təmiz sevgi hissi yaddır. Hər şeyi pulun həll etmək qüdrətinə inanan qadın, oğlunu müalicə üçün xaricə aparmaq fikrindədir. Lakin həkimin "Xəstəni tərpətmək olmaz. Aparmaq istəsəniz dilinizdən kağız verin, sonra aparın", - deməsi qarşısında qadın, oğlunun vəziyyətinin ağır olduğunu gec də olsa, başa düşür.

Bu zaman Mehridən həkimə zəng gəlir və deyir:

- Yox Zəhra xanım, inciməyin, mən başqa xəstəxanaya keçdim. Orada mənim taleyim qırıldı, puç oldu. Hələ də özümdə deyiləm... Mənim ilk sevgim, ilk məhəbbətim yaralandı. Çətin ki, çat ver-miş o sevgi bir də qaysaq bağlasın. İnanmıram, inanmıram...

Müəllif hekayənin sonunu reallığa söykənərək tamamlayır. Belə ki, çoxlarının həyatında baş vermiş ilk məhəbbətin yarası ömrü boyu sağalmır və unudulmur, Mehri kimi. Reallıq budur.



Kitabda maraqlı hekayələrdən biri də "Görüş" hekayəsidir. Hekayənin maraqlı və yaddaqalan olmasının əsas səbəbi yaşanmış hadisənin reallığıdır. Fikrimizcə hekayənin qəhrəmanı Kamilin prototipi müəllifin özüdür.

Çoxlarının həyatında baş vermiş, gənclikdə ilk məhəbbətə çox təəssüf ki, qovuşmaq çoxlarının taleyinə yazılmır. O cümlədən belə bir tale yazıçı Kamilin bəxtinə yazılır.

Arada neçə on illiklər keçib. Ömrünün ixtiyar çağında Kamil gəzinmək üçün Xan bağına yollanır.

Xatirələri öz qoynuna aldığı Kamillin, vaxtilə bu bağda imtahana hazırlaşdığı günlər gözü önünə gəlir. Baharın bu gözəl çağında hardansa burnuna gələn xoş ətiri tanımaq üçün ağacları nəzərdən keçirən Kamil, Alacəhrə adı ilə tanınan ağaca yaxınlaşır. Ağacın xırda, sarı çiçəklərindən gələn xoş ətir, istər-istəməz keçmiş günləri xatırladır Kamilə. Bu zaman bir qadının, yanında qız uşağı ilə keçməsi Kamilin mamırlamış xatirələrini oyatmaqla, içində şübhə oyadır. "Yox, odur. Gözlər həmin gözlər, xal da həmin xal. Eh, insandır da, bir-birinə oxşayır. O olsa tanıyardı", - fikrinin havasızlığında boğulduğu bir vaxtda, uşağın oyhayaraq onun yaxınlığına gəlməsini görən Kamil, uşaqdan telefonla onun şəklini çəkməsini xahiş edir.

Bu zaman qızla aralarında baş verən dialoq zamanı qadının Sevil olmasına şübhəsi qalmır. Bir təsadüf nəticəsində ömrü boyu unuda bilmədiyi Sevilin qarşısında "Məni məcburən başqasına vermək istəyirlər" məktubuna, "Mustuluğuna nə verim? Verirlər get də" sözləri Kamilin qəlbindən bir sızıltı kimi keçir. Hələ də indiyə kimi özlüyündə nə üçün belə cavab yazdığını aydınlaşdıra bilməyən Kamil, bu səhvi ucbatından özü də bilmədən onu sevən bir qızın ilk məhəbbətinin üstündən xətt çəkir. Bununla da həm özünə, həm də onu sevən qıza bir ömürlük əzab "bağışlayır".

"Qocaların qocalar evi" və "Oğluma məktub" hekayələrində cəmiyyətdə ata-oğul arasında getdikcə aşınmaya məruz qalmış milli dəyərlərin ağrısını qələmə alan yazıçı, övlad nankorluğunu ürək ağrısı ilə oxucunun diqqətinə çəkir.

Kitablarda uşaqlar üçün hekayələrlə yanaşı, xatirələrə də yer verilmişdi. Nağıl və rəvayətlərdən iqtibas edilmiş "Tülkü və Alabaş", "Maralın qurbağa sevgisi" və s. hekayələr ibrətamizliyi ilə fərqlənir.

Toiq Əmrahın kitabda "Sahibini gözləyən məzar" adlı povesti, ailələrdə sonsuzluq və onun bir çox insan həyatında ürək ağrıdan nəticələrinə həsr olunub.

Bənövşə və Aqil obrazları vasitəsi ilə müəllif öz baxış bucağından yanaşaraq, kövrək hisslər üstündə köklənmiş bir əsər ərsəyə gətirmişdir.

Müəllifin dilinin sadəliyi və rəvan olması diqqətəlayiqdir.

Bu yazı ilə Tofiq Əmrahın həm yaradıcılığına, həm də Vətənin müdafiəsinə həsr olunmuş ömür yoluna kiçik fraqmentlər vasitəsilə işıq salmağa çalışdıq. Buna nə dərəcədə nail olduğumuzu isə ən doğru şəkildə oxucu dəyərləndirəcək.

Əziz dostum Tofiq, sənə uzun ömür, möhkəm can sağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

**İmam CƏMİLLİ**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü, müharibə veteranı*